Qarşıdan gələn Novruz bayramınız mübarək, əziz neftçalalılar!



# GÜNDOĞAR

17 mart 2016-cı il – № 7-8 (6594)

İCTİMAİ-SİYASİ QƏZET

Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

Təsisçilər: Neftçala Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

## 21 mart — Beynəlxalq Novruz Günüdür

# ELLƏRİMİZİN SEVİNC, FƏRƏH BAYRAMI

Novruz bayramı xalqımızın ən doğma, ən əziz, ən müqəddəs, ən qaçılmaz, ən unikal bayramıdır desək, qətiyyən səhv etmərik. Çünki Novruzu uşaqdan böyüyə kimi bütün azərbaycanlılar ən ali bir duyğu və sayğı ilə qeyd edirlər. Novruz baharın gəlişi, təbiətin oyanması ilə bağlı olan bir bayramdır. Novruz bayramı sadəcə olaraq şadlıq, sevinc, səadət bayramı olmamış, tariximizin ən çətin anlarında insanların ürəyində özünə yer eləmiş, həyatına daxil olmuş, onların yaşamaq həvəsini, sabaha inam hissini qanadlandırmışdır.

Xalqımızın tarixi yaddaşından süzülüb gələn bu gözəl bayram keçmişimizi və gələcəyimizi bir-biri ilə bağlayır. Bu gün Novruzun ilk dəfə keçirildiyi tarixi dəqiq söyləmək mümkün deyil. Lakin onu deyə bilərik ki, bu bayramın şərəfinə ulu babalarımız övladlarına Novruz adı vermişlər və bu bayram xalqın ən ülvi duyğularını, sülh, dostluq, birlik, mərhəmət hisslərini özündə birləşdirir. Ayrı-ayrı dövrlərdə Novruza qadağalar qoyulsa da, xalq bu bayramı həmişə böyük təntənə ilə, ümumi sevinc içində qeyd etmişdir.

2009-cu ildə Heydər Əliyev Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Novruz bayramı və aşıq sənəti UNESKO-nun dünya xalqlarının qorunan qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Sevindirici haldır ki, BMT-nin Baş Məclisi martın 21-ni Beynəlxalq Novruz Günü elan etmişdir.

Dünyanın şimal yarımkürəsində yaşayan bir çox xalqlar bu bayramı yazın gəlişi ilə əlaqədar qeyd edirlər. Uzun müddət qışın soyuğundan, çətinliyindən əziyyət çəkən xalqlar yazın gəlişini intizarla gözləyirlər və bu bayramı təntənə ilə, sevgi ilə, ruh yüksəkliyi ilə qarşılayırlar.

Azərbaycanda Novruz bayramı xüsusi təmtəraqla, müxtəlif oyunların, tamaşa və nəğmələrin müşayiəti ilə keçirilir. "Cıdır tamaşaları", "Daşqaldırma", "Qılıncoynatma", "Kosa-kosa", "Aşıq-aşıq" və s. oyunları Novruz bayramına xüsusi təravət verməklə onu daha da rövnəqləndirir, cazibədar edir.



Ümumiyyətlə, milli varlıq və mədəniyyət xəzinəsi olan Novruz bayramı müdrik əcdadlarımızın bu günkü nəsillərə misilsiz yadigarıdır. Kainatın dəyişməz ahəngi və əbədi qanunları ilə bağlı olan bu el bayramı zamanın sınaqlarından çıxmış çoxəsrlik mədəniyyətimizin parlaq təcəssümüdür. Novruz ənənələri milli-mənəvi dəyərlərimiz sistemində müstəsna yer tutmuş, xalqımızın milli təfəkkürünün ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Cəmiyyət üzvləri arasında qarşılıqlı ünsiyyətin, səmimiyyətin gücləndirilməsi, humanizmin və yüksək əxlaqi keyfiyyətlərin formalaşmasında mühüm rol oynayan Novruz bayramının ümumbəşəri mədəni sərvətlər sırasında müstəsna yeri vardır.

Qan yaddaşımızda, qəlbimizin və ruhumuzun dərinliklərində kök salaraq milli özünüdərk məfkurəsini yaşatması sayəsində milli-mənəvi mədəniyyətimizin zənginliklərini özündə toplamış qədim Novruz mərasimlərini Azərbaycan xalqı qloballaşmanın vüsət aldığı sürətlə dəyişən dünyada bütün müasirliyi ilə özündə qoruyub saxlamaqdadır.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə yenidən qayıdışından sonra Novruz bayramı ölkəmizdə dövlət səviyyəsində qeyd olunur. Bu da tarixi köklərə qayıdışın, milli dəyərlərin bərpasının parlaq nümunəsidir. Ölkəmizin hər bir guşəsində böyük ruh yüksəkliyi ilə Novruz bayramının rəsmi səviyyədə qeyd olunması dövlət müstəqilliyimizin təntənəli töhfələrindən biridir. Sevinirik ki, möhtərəm Prezidentimiz İlham Əliyev də milli-mənəvi dəyərlərimizə, bu dəyəri özündə yaşadan Novruz bayramına diqqətlə yanaşır. Dövlət başçısının hər il bayram şənliklərində ailəsi ilə birlikdə iştirak etməsi buna əyani misaldır.

Novruz sözünün mənası "yeni gün" deməkdir. Ən böyük arzumuz da budur ki, Novruz həyatımıza təzəlik, gözəllik, sevinc və səadət, süfrələrimizə xeyir-bərəkət gətirsin. Düşmən tapdağı altında olan cənnət Qarabağımız azadlığa qovuşsun, bayram bayrama calansın, xalqımız xoşbəxt olsun.

**Qarşıdan gələn bayramınız mübarək, əziz neftçalalılar! Elimizə, obamıza xoş gəlmisən, gözəl Novruz!**

## Rayon ictimaiyyətinə

# TƏBRİK

**Əziz və hörmətli neftçalalılar!**

Qarşıdan hər birimiz üçün əziz, müqəddəs olan Novruz bayramı gəlir. Sizi bu münasibətlə ürəkdən təbrik edirəm. Hər birinizə xoş, gözəl bayram əhvali-ruhiyyəsi arzulayıram.

İnsanları baharın gəlişi, təbiətin oyanması, həyatın canlanması ilə müjdələyən Novruz min illərdən bəridir ki, xalqımız, millətimiz üçün böyük sevinc, şadlıq bayramı olmuşdur. Tariximizin müəyyən dövrlərində, zamanlarında müəyyən təzyiqlərə, qadağalara baxmayaraq bu əziz bayram zaman-zaman yaşamış, bu günümüzə qədər gəlib çatmışdır. Bu gün biz heç kimdən çəkinmədən, qorxmadan Novruzu özümüzün milli bayramımız kimi qeyd edir, sevinc dolu günlər, dəqiqələr yaşayırıq.

Dövlət səviyyəsində böyük təntənə ilə, ümumxalq sevinci ilə qeyd edilən bu əziz bayram müstəqlliyimizin bizə bəxş etdiyi ən böyük töhfədir. Biz buna görə ilk olaraq ümummilli liderimiz Heydər Əliyeva borcluyuq. Ulu öndər böyük çətinliklər bahasına müstəqilliyimizi qoruyub saxlamasaydı, yəqin ki, xalqımız Novruzu belə sevinclə, təntənə ilə, ürək açıqlığı ilə qeyd edə bilməzdi. Möhtərəm Heydər Əliyevin əziz bayram günlərində xalqla, sadə insanlarla bir yerdə olması, onlarla görüşüb söhbət etməsi milli birliyimizin möhkəmlənməsində çox böyük rol oynamışdır.

Çox sevinirik ki, bu gözəl ənənələr bu gün də davam edir. Möhtərəm Prezidentimiz İlham Əliyev də əziz bayram günlərində ailəsi ilə birlikdə xalqının yanında olur, keçirilən bayram tədbirlərində yaxından iştirak edir. Azərbaycanın muğam və aşıq sənəti ilə yanaşı Novruz bayramının da UNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irsinin şah əsərləri sırasına salınması dövlət başçımızın, Heydər Əliyev Fondunun səmərəli fəaliyyətlərinin, ardıcıl səylərinin bəhrəsidir.

Ürəklərdə saf duyğuların oyanması, insanlar arasında səmimiyyətin, mehribanlığın, ünsiyyətin artması Novruzun başlıca xüsusiyyətləridir. Əziz bayramı hər kəsin öz evində, eşiyində, isti ocağı başında qeyd etməsi, yaxınların, doğmaların yad olunması cəmiyyətdə qarşılıqlı xoş münasibətlərin genişlənməsinə, möhkəmlənməsinə xidmət edir. Dünyanın hansı yerində, hansı məkanında yaşamasından asılı olmayaraq, ürəyində Vətən sevgisi olan hər bir soydaşımız Novruz bayramını böyük sevinclə, fərəh hissilə qeyd edir. Keçirilən bayram şənlikləri onların milli köklərinə bağlılıqlarını möhkəmləndirir, vahid Azərbaycan ətrafında sıx birləşdirir.

Bu əziz, müqəddəs günlərdə ən ümdə diləklərimizdən biri də erməni təcavüzü nəticəsində elindən-obasından uzaq düşmüş, dədə-baba torpaqlarını itirmiş soydaşlarımızın tezliklə öz doğma yurd-yuvalarına, ev-eşiklərnə qayıtmasıdır. Əminik ki, möhtərəm Prezidentimiz İlham Əliyevin bu sahədə apardığı ardıcıl səyləri, məqsədyönlü siyasəti öz müsbət nəticəsini verəcəkdir.

Əziz bayram günlərində biz ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman Vətən övladlarını da unuda bilmərik. Onları dərin hörmət, ehtiram hissilə yad edir, hər birinə Qadir Allahdan qəni-qəni rəhmət diləyirik.

**Əziz neftçalalılar!**

Sizi bir daha qarşıdan gələn müqəddəs Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Hər birinizə əmin-amanlıq, bir-birindən xoş günlər arzulayıram. Qoy əziz Novruz evinizə, eşiyinizə bol ruzi-bərəkət gətirsin.

**İsmayıl VƏLİYEV,**
**Neftçala Rayonu İcra Hakimiyyətinin başçısı**

# NEFTÇALA YENİ LİBASINDA

## Keçirilən iməciliklər onu daha da gözəlləşdirir, səliqə-sahmanlı edir

Artıq mart ayıdır, yenə yurdumuza bahar gəlir. Yenə novruzlu günlərin ərəfəsindəyik. Əziz Novruzun, ılıq nəfəsli baharın gəlişi həmişə sevincdir, toy-bayramdır ellərimiz, obalarımız üçün. Oyanan torpaq cana gəlir, ağaclar tumurcuqlanır, çöllər,



tarlalar yaşıl don geyinir, quşlar öz bahar nəğmələrini oxuyurlar. Hər tərəfdə bir təzəlik, gözəllik duyulur.

Novruzun, baharın gəlişi sonsuz sevinclə, fərəhlə yanaşı, həm də çoxlu qayğılar gətirir insanlara. İndi böyüklüyündən,



kiçikliyindən asılı olmayaraq hansı təşkilata, hansı idarəyə, müəssisəyə yolunu salsan, orada bir canlanma, dirçəliş görərsən. Hamı əziz Novruzu layiqincə qarşılamaq üçün iməciliklər keçirir, hər yerdə təmizlik, səliqə-sahman yaratmağa çalışır.

Martın 5-də, şənbə günü keçirilən ümumrayon iməciliyində xüsusilə böyük canlanma duyulurdu. Həmin gün elə bir kollektiv, idarə və müəssisə yox idi ki, bu tədbirdə fəal iştirak etməsin. Yüzlərlə, minlərlə insan iməcilikdə iştirak etməyi, rayonumuzun, şəhərimizin təmizliyinə, abadlığına, yaşıllaşdırılmasına yeni töhfə verməyi özünə borc bilirdi. İməciliklər boyu onlardan aldığımız kiçik müsahibələr də bunu aydın şəkildə göstərirdi. Adamlar gördükləri işlərdən zövq aldıqlarını bildirirdilər.

Keçirilən iməciliklərin planı qabaqcadan hazırlandığından, görüləcək işlər, həyata keçiriləcək tədbirlər dəqiq müəyyənləşdirildiyindən heç bir çaşqınlıq, çətinlik yaranmır, hər bir idarə, hər bir kollektiv öz ərazisini, nə iş görəcəyini yaxşı bilirdi. Ona görə də təmizlik işlərilə məşğul olan, ağacların gövdələrinə, bardurlara əhəng verən, yaşıllığa qulluq göstərən və digər işlərlə məşğul olan insanların çöhrəsindən sevinc yağırdı.

Görülən işlər, həyata keçirilən tədbirlər öz bəhrəsini verir. Bütövlükdə rayonumuzun, o cümlədən şəhərimizin siması xeyli dərəcədə dəyişmiş, gözəlləşmişdir. Hər yerdə təmizlik, səliqə-sahman nəzərə çarpır. Bununla yanaşı görüləcək işlər də çoxdur. Neftçalalılar qarşıdakı günlərdə, həftələrdə, aylarda da iməcilikləri davam etdirmək əzmindədirlər.

Nəzərdə tutulan digər işlər də uğurla yerinə yetirilməkdədir. Yenə küçələr, meydanlar bəzədilmişdir. Yollar boyunca üçrəngli bayraqlarımız vüqarla dalğalanmaqdadır. Hər tərəf çıraqbandır. Şəhərimizin gecəsini gündüzündən ayırmaq olmur. Kür sahilindəki Bayraq Meydanı, Bulvar bu gün dünənkindən daha gözəl, daha qaynardır. Havaların nisbətən soyuq olmasına baxmayaraq şəhər sakinlərinin əksəriyyəti asudə vaxtını burada keçirməyə üstünlük verir. Kür üstünün təmiz, saf havası bir çox hallarda dava-dərmandan da güclü, təsirli olur. Belə vaxtlarda bu gözəllikləri yaradanlara ünvanlanan minnətdarlıqların da sayı çox olur.

Ötən il olduğu kimi Novruzun, baharın gəlişinə həsr olunmuş təntənəli bayram tədbiri yəqin bu il də Bayraq Meydanında keçiriləcəkdir. Mədəniyyət işçiləri bununla əlaqədar geniş proqram hazırlayırlar. Bayraq Meydanında, Bulvarda keçirilən əvvəlki tədbirlər rəngarəngliklər ilə fərqləndiyindən rayon sakinləri bu ilki tədbirin xüsusilə gözəl, unudulmaz, yaddaqalan olacağına inanırlar. Bayram günlərində buraya gələnlərin sayı da çox olacaqdır. Aydın səma altında, təbiətin qoynunda ətirli çay içmək, musiqi dinləmək hamının ürəyindən olacaqdır.

Bayramqabağı günlərdə təkcə Neftçala şəhərində deyil, kənd və qəsəbələrdə, yaşayış məntəqələrində də böyük canlanma duyulur. Təmizlik, abadlıq işləri burada da geniş vüsət alır. Bu ərazilərdəki mədəniyyət evləri, onların musiqi kollektivləri də bayrama əliboş gəlməyəcəklər. Onların hazırla-




dıqları proqramlar da yerli sakinlərin ürəyindən olacaq, dinləyicilərdə xoş bayram ovqatı yaradacaqdır.

Bəli, indi hər tərəf yaz ətirlidir, hər tərəf bayram təravətinə bürünüb. Hamı — böyük də, kiçik də yolunu gözləyir, əziz



Novruz. Gəl, sevindir, şadlandır ellərimizi. Qədəmlərin mübarək, ruzi-bərəkətli olsun!

**H.ƏSƏDOV**

## Bayram yarmarkası davam edir: gəlin, alın və razı qalın

Bütün bayramlar gözəl, təravətli olsa da, Novruzun öz yeri, öz hüsnü var. Bu bayram bizim üçün xüsusilə əzizdir, müqəddəsdir. Ona görə hamılıqla dədələrimizdən, babalarımızdan bizə ərməğan olan əziz Novruzumuzun pişvazına çıxırıq, qədəmlərinə gül-çiçək səpirik, şəninə ən zəngin süfrələrimizi hazırlayırıq.

Zəngin süfrə hazırlamaq üçün isə lazımi ərzaq məhsulları lazımdır. Bunu nəzərə alaraq rayon rəhbərliyinin təşəbbüsü ilə Neftçala şəhərindəki ticarət mərkəzində kənd təsərrüfatı məhsullarının geniş satış yarmarkası təşkil edilmişdir. Neçə gündən bəri davam edən yarmarkadan kənd təsərrüfatı məhsulları ilə yanaşı digər ərzaq məhsullarını da almaq mümkündür. Özü də bazar qiymətlərindən xeyli ucuz.

Əziz Neftçalalılar! Sizi bayram yarmarkasına dəvət edirik. Gəlin, alın və razı qalın.

## 2016-cı il — "Multikulturalizm İli"dir

# ÖLKƏMİZİN ÖZÜNÜ MULTİKULTURALİZM MƏRKƏZİ SAYMAĞA TAM HAQQI VAR

Ulu öndərimiz Heydər Əliyev siyasətini layiqincə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin 2016-cı ili "Multikulturalizm İli" elan etməsi heç də təsadüfi deyil. Azərbaycan ta qədimdən ən müxtəlif dinlərin, mədəniyyətlərin qovuşduğu, ən müxtəlif xalqların və millətlərin eyni bir ailənin mehriban üzvləri kimi bir yerdə yaşadığı məkan olub. Buna görə bu gün Azərbaycanın belə bir mühüm dəyərə malik missiyanı həyata keçirməyə, multikulturalizmin təbliğinin mərkəzinə çevrilməyə tam haqqı, hüququ var.

Multikulturalizm termini ilk dəfə Kanadada yaranıb, XX əsrin əvvəllərində Avropaya keçib. Amma Azərbaycanda bu ənənənin tarixi çox qədimdir. Multikulturalizm ideyaları hələ dahi Nizaminin "Yeddi gözəl" və "İskəndərnamə" əsərlərində aydın əksini tapıb. Böyük şair "Yeddi gözəl" poemasında irqindən, dinindən, dilindən asılı olmayaraq ən müxtəlif millətləri təmsil edən gözəllərə eyni bir rəğbət hissilə yanaşıb, onların ölməz obrazlarını eyni bir məhəbbətlə yaradıb. "İsgəndərnamə"də də bizim millətə mənsub olmayan Makedoniyalı İsgəndər ideal bir obraz kimi təsvir edilib, onun Bərdə hökmdarı ilə görüşü barədə məhəbbətlə söhbət açılıb.

Belə misalların sayını çox artırmaq olar. Bizim qonşu rus və fars xalqları ilə həmişə isti münasibətlərimiz olub, bu xalqlara həmişə dərin sayğı hissi ilə yanaşmışıq. Böyük mütəfəkkir Mirzə Fətəli Axundov rus ədəbiyyatının bir çox görkəmli nümayəndələri ilə yaxından əlaqə saxlayıb, onlarla dostluq edib, rus ədəbiyyatının güzgüsü adlandırdığı dahi rus şairi Aleksandr Sergeyeviç Puşkinin ölümünə həsr etdiyi ölməz "Şərq poeması"nı fars dilində qələmə alıb, sonradan onu rus dilinə tərcümə edib. Abbasqulu ağa Bakıxanov dəfələrlə Puşkinin evində qonaq olub, uzun illər onunla yaradıcılıq əlaqəsi saxlayıb. Mixail Lermontov Azərbaycan ərazisini qarış-qarış gəzib, el aşıqları ilə yaxından əlaqə saxlayıb, onlarla dostluq edib, bir çox Azərbaycan sözlərini, aşıq, saz kəlmələrini rus dilinə gətirib. Böyük fransız yazıçısı Aleksandr Düma da xan qızı Natəvanın qonağı olub, Azərbaycan şairəsinin lirik şeirlərinə heyran qalıb.

**(Ardı 3-cü səhifədə)**

# FACİƏ QURBANLARININ ANIM TƏDBİRİ

Xalıqımız bu il fevralın 26-da Xocalı soyqırımı faciəsində həlak olmuş, itkin düşmüş soydaşlarımızın əziz xatirəsini 24-cü dəfə andı, 24-cü dəfə tarixdə misli görünməmiş bu qanlı faciənin ildönümünü dərin hüzn, böyük sayğı ilə qeyd etdi. Bundan sonra illər, on illər, əsrlər ötsə də Azərbaycan xalqı bu xatirəni həmişə anacaq, bu qanlı faciənin ildönümünü dərin hüznlə qeyd edəcək, bu hadisənin yaddan çıxmasına, unudulmasına heç vaxt yol verməyəcək. Ona görə ki, bu qanlı faciə bizim qan yaddaşımızdır.



Bu faciə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal edərkən, etnik azərbaycanlılara qarşı baş vermiş soyqırımdır. Öz qəddarlığı və amansızlığı ilə fərqlənən, erməni vəhşiliyini bütün çılpaqlığı ilə açıb üzə çıxaran bir soyqırım. Xocalı faciəsi Dağlıq Qarabağ uğrunda gedən mübarizə zamanı baş vermiş ən dəhşətli hadisədir desək, səhv etmərik. Bu soyqırım zamanı Azərbaycan xalqının verdiyi qurbanların, gedən şəhidlərin sayı, miqyası da bunu deməyə əsas verir...

Mühasirəyə alınan şəhərdə qalmış təqribən 2500 nəfər xocalılı Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etdi. Amma bir günün içində yer üzündən silinən şəhəri tərk edən 2500 Xocalı sakinindən 613-ü düşmən gülləsinə tuş gəlib qətliamın qurbanı oldu. Bu soyqırım nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla — 613 nəfər insan amansızcasına qətlə yetirildi, 8 ailə tamamilə məhv oldu, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsinə tuş gələrək yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir, 150 xocalılı itkin düşdü. Bu qanlı faciə zamanı dövlətin və əhalinin əmlakına 1 aprel 1992-ci il tarixinə olan qiymətlərlə 5 milyard rubl dəyərində ziyan vurulmuşdu.



Bu qanlı faciəyə ilk dəfə yalnız ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra siyasi qiymət verildi, yalnız bundan sonra Xocalı faciəsi öz adı ilə çağırıldı. O vaxtdan etibarən də hər il fevralın 26-sı Xocalı qətliamının ildönümü günü kimi qeyd edilir, bu münasibətlə hər yerdə anım tədbirləri həyata keçirilir.

Azərbaycanın xarici olkələrdəki diasporları, nüfuzlu Heydər Əliyev Fondu bütün dünyada bu istiqamətdə çox böyük işlər görürlər, mühüm tədbirlər həyata keçirirlər, erməni qaniçənlərinin vəhşiliklərini təkzibedilməz dəlillərlə, konkret faktlarla açıb meydana qoyur, sübuta yetirirlər. Bunun da sayəsində dünya xalqları ermənilərin kim olduqlarını daha yaxından tanıyırlar, onların mənfur simalarına daha yaxından bələd olurlar.

Fevralın 26-da respublikamızın hər yerində olduğu kimi rayonumuzda da Xocalı faciəsi qurbanlarının əziz xatirəsi dərin hüzn, böyük ehtiram hissi ilə yad edildi, bu münasibətlə yaddaqalan tədbirlər həyata keçirildi. Səhər tezdən şəhərin mərkəzindəki Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə çoxlu sayda insan toplaşmışdı. Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, rayonun rəhbər işçiləri buraya gələrək böyük sayğı hissi ilə abidəni ziyarət etdilər. İdarə və müəssisələrin kollektivləri, rayon ictimaiyyətinin nümayəndələri abidəyə yaxınlaşaraq oraya tər çiçək dəstələri düzdülər.



Daha sonra tədbir iştirakçıları rayon Dövlət rəsm qalereyasına gələrək Xocalı soyqırımı qurbanlarına həsr olunmuş məktəblilərin əl işlərindən ibarət sərgiyə baxdılar. Kiçik yaşlı uşaqların ifasında səslənən ədəbi-bədii kompozisiya hamını kövrəltdi. Bütün bunlar yaddaşlarımızı bir daha təzələdi, erməni vəhşiliyinin iç üzünü bir daha açıb göstərdi.

# Nazirlər Hüseynqulu Bağırov, Fikrət Məmmədov və Baş prokuror Zakir Qaralov rayonumuzda







Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq bu dəfə fevralın 25-də rayonumuza ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov gəldi. Həmin gün Heydər Əliyev Mərkəzinin qarşısına xeyli sayda adam toplaşmışdı.

Qəbul başlanmamışdan əvvəl rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyev və ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov ümummilli lider Heydər Əliyevin abidəsi önünə gələrək buraya gül dəstələri qoydular.

Sonra vətəndaşların qəbulu başlandı. Görüş zamanı 40-a yaxın vətəndaşın təklif və müraciətləri dinlənildi, şikayətlərinə baxıldı. Müraciətlər əsasən ətraf mühitin mühafizəsi, meşələrin qorunması, hidrometeorologiya, biomüxtəliflik, bioresurslar, ətraf mühitin monitorinqi və s. məsələlərlə bağlı idi.

Qəbula yazılmış hər bir vətəndaşın müraciətini dinləyən nazir, şikayətlərin qanunvericiliyə uyğun qısa müddət ərzində araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə müvafiq tapşırıqlar verdi.

Eyni zamanda vətəndaşlar tərəfindən verilən müxtəlif təkliflər qeydə alındı, qaldırılan digər məsələlərin əksəriyyəti yerindəcə həll olundu, araşdırılmasına ehtiyac olan müraciətlər isə müvafiq tədbirlərin görülməsi üçün nəzarətə götürüldü.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyət dairəsinə aid olmayan müraciətlərlə bağlı vətəndaşlara izahat verildi, həmin müraciətlərin aidiyyəti dövlət qurumlarına çatdırılması üçün qeydiyyata alındı.

Həmin gün rayonun ayrı-ayrı yaşayış məntəqələrindəki görüşlər də yaddaqalan oldu. Bu görüşlər zamanı da nazir Hüseynqulu Bağırov vətəndaşları dinlədi, onları narahat edən bir sıra məsələlərə aydınlıq gətirdi.



* * *

Rayonumuzda növbəti görüş martın 11-də respublikanın Baş prokuroru Zakir Qaralovla oldu. Görüşdə rayonumuzun sakinləri ilə yanaşı Biləsuvar, Cəlilabad və Cəbrayıl rayonlarının vətəndaşları da iştirak edirdilər.

Qəbuldan əvvəl Neftçala Rayonu Icra Hakimiyyətinin basçısı İsmayıl Vəliyev və Baş prokuror Zakir Qaralov xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək oraya gül dəstələri qoydular, ulu öndərin əziz xatirəsini dərin ehtiramla yad etdilər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 50-ə yaxın vətəndaşın müraciətində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll olunması üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verdi.

Sonra həmin rayonların prokurorlarının iştirakı ilə müşavirə keçirildi. Müşavirədə bölgədə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyinin və kəsərliliyinin artırılması üçün konkret tapşırıqlar verildi. Habelə vətəndaşların müraciətlərinə obyektiv baxılmasını və onların qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşımaları onların diqqətinə çatdırıldı.

Qəbul zamanı vətəndaşlar əhaliyə göstərilən hərtərəfli qayğıya, bölgələrdə qəbulların silsilə xarakter almasına, regionlarda yüksək sosial-iqtisadi şəraitin yaradılmasına görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə etdilər.

* * *

Respublikanın Ədliyyə naziri Fikrət Məmmədov isə Neftçalaya martın 16-da gəldi. Bu dəfə nazirin qəbulunda Neftçala ilə yanaşı Salyan və Biləsuvar rayonlarının da vətəndaşları iştirak edirdilər.

Qəbuldan əvvəl rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyev və ədliyyə naziri Fikrət Məmmədov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, ulu öndərin əziz xatirəsinə dərin ehtiramlarını bildirdilər.

Qəbula yazılış qabaqcadan başlanılmışdı, həmçinin vətəndaşlar nazirliyin elektron xidmət portalı vasitəsilə elektron qaydada birbaşa yazılmaq imkanından yararlanmışdılar.

Gün ərzində aparılmış qəbul zamanı ədliyyə və məhkəmə fəaliyyəti, habelə digər müxtəlif məsələlər ilə bağlı hər bir vətəndaş diqqətlə dinlənildi, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapdı, digər müraciətlər üzrə qəbulda iştirak edən nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verildi.

Eyni zamanda, ədliyyə və məhkəmə fəaliyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərə baxıldı, onların araşdırılması üçün aidiyyəti üzrə göndərilməsi təmin olundu.

Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər.

Səfər zamanı ədliyyə naziri yerli məhkəmə və ədliyyə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış oldu, hakimlər və ədliyyə işçiləri ilə görüşərək ölkə Prezidentinin korrupsiyaya şərait yaradan halların aradan qaldırılması, şəffaflığın artırılması, qərarların ədalətliliyinin təmin edilməsi, eləcə də qərəzli yanaşmanın yolverilməzliyi, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına ciddi riayət olunması ilə bağlı tələblərini diqqətə çatdırdı, aidiyyəti tövsiyə və tapşırıqlarını verdi.

# Tibbi profilaktik müayinələr davam edir

Ölkəmizdə insan amili daim diqqətdə olan, heç vaxt aktuallığını itirməyən məsələdir. Son dövrdə əhalinin soisal rifahına, sosial müdafiəsinə, təhsilinə, sağlamlığına xidmət edən çoxsaylı layihələrin həyata keçirilməsi də bununla bağlıdır. Bu layihələrin içərisində insanların can sağlıqlarının, sağlamlıqlarının qorunması xüsusilə böyük əhəmiyyət kəsb edir. Sağlam olmadan qarşıya qoyulan məqsəd uğrunda mübarizə aparmaq, nəyəsə nail olmaq mümkün deyildir.



2014-cü ildə ölkə başçısı əhalinin başdan-başa ümumi profilaktik tibbi müayinədən keçirilməsi ilə əlaqədar tapşırıq və tövsiyələrini verəndə də məhz bunları nəzərə almışdı. Hamı tərəfindən böyük razılıq hissilə qarşılanan bu nəcib təşəbbüs aidiyyəti qurumlar tərəfindən tələb olunan qaydada yerinə yetirildi. Məsələnin aktuallığı, vacibliyi nəzərə alınaraq bu iş ötən il də ardıcıllıqla həyata keçirildi. Yüz minlərlə insanlar tibbi müayinədən keçərək özlərinin sağlamlıq durumu barədə dəqiq məlumatlar əldə etdilər. Müayinədən sonra müalicəyə cəlb olunan xəstə insanlar tezliklə sağlamlıqlarını bərpa etdilər. Bütün bunlar əhali arasında xoş əhvali-ruhiyyə yaratmaya bilməzdi. Onlar dövlət başçısına, bu vacib işi həyata keçirən səhiyyə nazirliyinə, onun yerlərdəki qurumlarına razılıqlarını, minnətdarlıqlarını bildirdilər.



Yaxşı haldır ki, əhalinin sağlamlığına xidmət edən bu tədbir bu il də davam etdirilir. Ötən illərdə olduğu kimi bu il də rayonumuzda tibbi müayinələrin vaxtında, keyfiyyətlə həyata keçirilməsi üçün lazımi şərait yaradılmış, təcrübəli həkimlərdən və tibb işçilərindən ibarət həkim briqadaları təşkil olunmuşdur. Bunun nəticəsidir ki, fevral ayının ortalarından başlayan tibbi profilaktik müayinələr bu gün də uğurla davam edir. Rayonun ayrı-ayrı idarə və müəssisələrinin kollektivləri tərtib olunmuş qrafik əsasında rayon mərkəzi xəstəxanasının poliklinika şöbəsinə gələrək özlərini müayinədən keçirir, sağlamlıq durumları barədə ətraflı məlumatlar əldə edirlər.



Digər həkim briqadaları isə inzibati ərazilərdə fəaliyyət göstərirlər. Onların fəaliyyəti barədə də xoş sözlər eşitmək olar. Həmin briqadaların həkimləri və tibb işçiləri də üzərlərinə düşən vəzifənin yerinə yetirilməsi üçün səylərini əsirgəmirlər.

Mərkəzi xəstəxananın poliklinika şöbəsində olarkən biz də müayinələrin necə keçməsinin canlı şahidi olduq. Həmin gün ayrı-ayrı idarə və müəssisələrin kollektivləri kimi biz mətbuat işçiləri də müayinədən keçdik. Xəstəxananın baş həkimi Telman Zahidovun, baş həkimin müavini Ramiz Əliyevin, poliklinikanın baş həkimi Eynulla Əzizovun burada olması məsuliyyəti daha da artırırdı. Onlar müayinələrin gedişinə diqqət yetirməklə yanaşı, lazımi məsləhət və tövsiyələrini də verirdilər. Baş həkim Telman Zahidov müayinələrdə fəal iştirak edən idarə və müəssisələrin adlarını hörmətlə çəkdi. Bildirdi ki, bu təşkilatlar, onların kollektivləri tibbi profilaktik müayinələrdə xüsusilə mütəşəkkil iştirak etmişlər. Bununla yanaşı o, bu vacib işə böyük məsuliyyətlə yanaşan həkimlərin adlarını çəkməyi də unutmadı. Aydın oldu ki, rayon sakinlərinin sağlamlıqlarının qorunmasında mühüm xidmətləri olan Süsən Zeynalova, Həqiqət Əliyev, Mehdi Abbasov və başqa təcrübəli həkimlər tibbi müayinələr zamanı da xoş münasibətləri, peşəkarlıqları ilə insanları razı salırlar.

İndiyə qədər rayon əhalisinin on beş min nəfərdən çoxu tibbi müayinədən keçərək sağlamlıq durumları barədə ətraflı məlumatlar əldə edə bilmişlər. Belə müayinədən keçməyən insanlar isə öz növbələrini gözləyirlər.

**Fərhad AĞAYEV**

# İdmanımızın bayram günü

Ölkəmizi idman ölkəsi adlandıranlar heç də yanılmırlar. Müstəqilliyimiz dövründə bu işə ciddi diqqət yetirildiyindən bəhrəsini də görürük. Elə bir beynəlxalq idman tədbiri olmur ki, Azərbaycan idmançıları həmin yarışlardan bir-birindən parlaq, möhtəşəm qələbələrlə qayıtmasınlar. Ötən il respublikamızın paytaxtı Bakı şəhərində keçirilən birinci Avropa Oyunları ölkəmizin, ölkəmizin idmançılarının nəyə qadir olduqlarını bir daha əyani şəkildə göstərdi. Həmin möhtəşəm yarışlarda 21 qızıl, 15 gümüş, 20 bürünc medal qazanan idmançılarımız xalqımıza, millətimizə sözün əsl mənasında başucalığı gətirdilər, üçrəngli bayrağımızı dəfələrlə ən yüksəkdə dalğalandırmağa nail oldular. Dövlətimizin başçısı cənab İlham Əliyevin təbirincə desək, bu oyunlar bizə imkan verdi ki, potensialımızı dünyaya, Avropaya, eləcə də öz ictimaiyyətimizə nümayiş etdirək.

Rayonumuzda da idmanın inkişafına, güclü idmançıların yetişməsinə qayğı göstərilir. Son illər qurulan, yaradılan yeni müasir idman meydanları, qurğuları, həyata keçirilən tədbirlər nəticəsiz qalmır. Yaradılmış bu şəraitdən yararlanan idmançılarımız rayon və respublika yarışları ilə yanaşı, beynəlxalq turnirlərdə də inamlı qələbələr qazanır, doğma Neftçalamızı uzaq-uzaq ünvanlarda tanıdırlar. Belələrindən söz düşəndə tanınmış idmançılarımız Elnur Şəfiyevin, Natiq Əsgərovun, Maarif Eyvazovun, Ülvi Səmədovun, Əbülfəz Təhməzovun və neçə-neçə başqalarının adları hörmətlə çəkilir, onların məşqçiləri Faiq Vəliyevin, Ağa Məmmədovun, Cəmaləddin Səmədovun və digərlərinin ünvanlarına xoş sözlər söylənilir.

Prezident İlham Əliyevin sərəncamı ilə mart ayının 5-nin ölkəmizdə Bədən Tərbiyəsi və İdman Günü kimi elan olunması bu sahəyə olan qayğı və diqqətdən irəli gəlir, insanların sağlamlığına xidmət edir. Həmin gün respublikamızın paytaxtı Bakı şəhəri ilə yanaşı regionlarda, rayonlarda da bir-birindən maraqlı, rəngarəng tədbirlər təşkil olunur.

Belə tədbirləri rayonumuzda görmək hamımız üçün xoş idi. Neftçala şəhərində, ayrı-ayrı qəsəbə və kəndlərdə təşkil olunan bu maraqlı tədbirləri çoxlu sayda tamaşaçı izlədi.



* * *

**Rayon rəhbərliyinin təşəbbüsü ilə Neftçala şəhərinin mərkəzi hissəsində, əhalinin daha sıx yaşadığı yerdə qurulan təzə müasir mini-futbol meydançası da idmana qayğının yeni bariz nümunəsidir. Belə müasir idman qurğusunun tikintisi sakinlər arasında böyük sevincə səbəb olmuşdur. Bundan qabaq belə meydançalar Hüseyn Cavid adına şəhər mədəniyyət və istirahət parkında, Heydər Əliyev Mərkəzinin yaxınlığındakı parkda inşa olunmuşdu. Yeni mini-futbol meydançası istifadəyə verildikdən sonra bu ərazidəki gənclər öz asudə vaxtlarını daha səmərəli şəkildə həyata keçirə biləcəklər. Bunu nəzərə alaraq rayon gənclər və idman idarəsi meydançanı vaxtında təhvil vermək üçün səylə çalışır.**

# Seminar keçirilmişdir

Fevralın 22-də Neftçala şəhərindəki Heydər Əliyev Mərkəzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Neftçala Rayon İcra Hakimiyyəti ilə birlikdə “Azərbaycan Respublikasında dövlət-din münasibətləri sahəsində mövcud vəziyyət haqqında” seminar keçirmişdir. Seminarda rayon icra hakimiyyəti başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini Gültəkin xanım Sadıqova, başçı aparatının məsul işçisi Vasif Əliyev, komitənin dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, komitənin Şirvan bölgəsində şöbə müdiri vəzifəsini əvəz edən Azər Sadıqov, komitənin Neftçala rayonu üzrə aparıcı məsləhətçisi Yusif Yusifli, rayonun axundu Hacı Mirseymur Əliyev, rayon məscidləri dini icmalarının sədr və axundları, ictimai təşkilatların nümayəndələri, rayon ziyalıları, gənclər iştirak edirdilər.



Seminarı rayon icra hakimiyyəti başçısının müavini Gültəkin xanım Sadıqova açaraq tədbirin əhəmiyyətini qeyd etdi və icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevin salamlarını seminar iştirakçılarına çatdırdı. Qeyd etdi ki, möhtərəm Prezidentimiz İlham Əliyev yaşadığımız 2016-cı ili “Multikulturalizm ili” elan etmişdir. Bu isə ölkəmizdə qeyri-islami dinlərə qarşı hörmətlə yanaşmaq deməkdir. Azərbaycanda müxtəlif məzhəblərin mövcud olmasına baxmayaraq, tolerant olan ölkəmizdə hər kəsin dininə, məzhəbinə çox hörmətlə yanaşılır.

Sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Əliheydər Zülfüqarov geniş məruzə ilə çıxış etdi. Qeyd etdi ki, ölkədəki dini durumun sabitliyi, tolerantlığın səviyyəsinin yüksək olması dini qurumlara öz ibadət evlərində mövcud qanunlar çərçivəsində fəaliyyət göstərməyə, dini ayinləri yerinə yetirməyə, dini bayramlar, mərasimlər keçirməyə əlverişli şərait yaradır. Onların azad şəkildə ibadəti təmin olunur. Cəmiyyətdə müxtəlif dinlərin nümayəndələri arasında qarşılıqlı hörmət mühitinin hökm sürməsi günümüzün reallığıdır.

Ötən müddət ərzində müxtəlif konfessiyalara mənsub dini ibadət evlərinin tikintisi və bərpasına lazımi şərait yaradılması prioritet istiqamətlərdən biri olmuşdur. Həmin məscid və ziyarətgahlarda əsaslı bərpa və yenidənqurma işləri aparıldıqdan sonra dindarların istifadəsinə verilmişdir.

Məruzəçi İslam dini pərdəsi altında dünyada baş verən hadisələrə də toxunaraq qeyd etmişdir ki, İslam dini dünyada ən humanist, insansevər bir dindir. Təəssüf ki, həqiqi İslama yad olan radikal islamçılar digər məzhəblərə qarşı qatı düşmənçilik münasibəti göstərirlər. Hazırda Yaxın Şərqdə baş verən hadisələr, qanlı müharibələrdə “Allahu Əkbər” sədaları altında müsəlmanın müsəlmanı qətlə yetirməsi buna əyani sübutdur. Azərbaycanda dinlər arasında belə münasibətlər dövlət səviyyəsində tənzimlənir və dini ekstremizmə qarşı fəal mübarizə aparılır. Respublikada müxtəlif məzhəb və təriqətlərin bir yerdə ibadət etmələri, namaz qılmaları isə çağdaş dünyaya bir barış mesajı, humanist bir çağırışdır.

Məruzədən sonra Ə.Zülfüqarov seminar iştirakçılarının suallarını çavablandırdı.

Seminardan sonra iştirakçılar çay süfrəsi arxasında öz müzakirələrini davam etdirdilər.

**Hacı İbrahim NURLU,**
**“Böyük Oriyat” məscidi dini icmasının sədri**

# ÇİÇƏK TƏRAVƏTLİ BAYRAM

Elimizdə, obamızda, ictimai həyatımızda bayramlar, əlamətdar günlər çoxdur. Hərəsinin də öz gözəlliyi, öz tarixi var. 8 mart Beynəlxalq Qadınlar Günü də belə unudulmaz, heç vaxt solub-saralmayacaq günlərdən, bayramlardandır. Sovet dönəmində qeyd etdiyimiz bayramların, əlamətdar günlərin çoxu unudularaq yaddan çıxsa da, 8 Mart bu gün də yaşayır və sevilə-sevilə qeyd olunur. Bu da təsadüfi deyildir. Ona görə ki, bu əlamətdar gün hər birimiz üçün əziz və doğma olan analarımızın, bacılarımızın, ömür-gün yoldaşlarımızın, çiçək ətirli qızlarımızın bayramıdır. Həmin gün təkcə qadınlar deyil, elə kişilər də çox sevinir, qarşı tərəfi təbrik etmək üçün gül dükanlarına, ətriyyat mağazalarına tələsirlər.

Öz başlanğıcını 1857-ci ildən götürən bu bayramın tarixi də çox maraqlıdır. Həmin ildə Amerikanın Nyu-York şəhərində toxucu qadınların cəmiyyətdəki haqsızlıqlara qarşı etiraz nümayişi bu əlamətdar günün yaranmasına səbəb olmuşdur. 1975-ci ildə isə Birləşmiş Millətlər Təşkilatı rəsmi olaraq hər il mart ayının 8-nin bütün dünyada Beynəlxalq Qadınlar Günü kimi qeyd olunması barədə qərar qəbul etmişdir. O vaxtdan başlayaraq bu gözəl bayram hər yerdə olduğu kimi Azərbaycanda da geniş şəkildə qeyd olunmağa başlanmışdır. AXC-Müsavat hakimiyyəti dövründə bu bayramın yasaq olunması heç də birmənalı qarşılanmamışdı. Buna etiraz edənlər çox olmuşdu. Ulu öndər Heydər Əliyevin bu gözəl bayramı yenidən xalqımıza qaytarması milyonların böyük razılığına səbəb olmuş, onları ürəkdən sevindirmişdi.

Əlamətdar gün bu gün də eyni böyük sevinclə, xoş ovqatla qeyd olunur. Respublikamızın hər yerində olduğu kimi rayonumuzda da 8 Marta geniş hazırlıq görülmüşdü. Ünvan da bəlli idi: "Avtoturist" restoranı. Həmin gün restoranın işıqlı salonunda həqiqətən böyük sevinc yaşanırdı. Əsl gülləri, çiçəkləri xatırladan qadınlar təyin olunan yerlərində əyləşmişdilər. Stolların üzərinə rəngarəng güllər, dadlı meyvələr, biskvit məhsulları düzülmüşdü.

Belə xoş gündə qadınları qonaqlarsız təsəvvür etmək mümkün deyildi. Ayrı-ayrı idarə və müəssisələrin rəhbərlərinin, rayonun rəhbər işçilərinin tədbirə qatılmaları qadınlara olan hörmət və ehtiramdan irəli gəlirdi. Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevin gəlişi xüsusilə yaddaqalan idi. İdarəetmə işlərində qadınlara həmişə önəm verən rayon rəhbəri belə xoş gündə də onları tək qoymamışdı.

Bu dəfə də Beynəlxalq Qadınlar Gününə həsr olunmuş təntənəli tədbiri aparmaq şəhər 2 saylı tam orta məktəbinin müəllimi, sözlü-söhbətli, şair təbiətli Zeynəb Muradovaya həvalə edilmişdi. O, məclisi açaraq cəmiyyətimizin etibarlı dayaqları, həyatımızın çiçəkləri olan qadınlar barədə bir-birindən dəyərli fikirlər səsləndirdi, şeirlərdən parçalar söylədi.

Sonra təbrik üçün sözü rayon icra hakimiyyəti başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini, tədbirin təşkilatçısı Gültəkin xanım Sadıqovaya verdi. İlk öncə əziz bayram münasibətilə rayon rəhbəri adından və öz adından qadınları ürəkdən təbrik edən Gültəkin xanım onlara ictimai həyatlarında və şəxsi işlərində uğurlar dilədi. Onun Azərbaycan qadınlarının tarixdəki rolu, qəhrəmanlıqları ilə bağlı fikirləri maraqla dinlənildi. Heydər Əliyev Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın müasir şəraitdə bu işləri böyük uğurla, layiqincə davam etdirdiyini, ölkəmizi, xalqımızı xaricdə ləyaqətlə təmsil etdiyini vurğulayan Gültəkin xanım bu şəfqətli xanımın bu günkü nəslə, bu günkü gəncliyə əsl nümunə olduğunu diqqətə çatdırdı. Qeyd etdi ki, ölkə qadınları kimi rayonumuzun qadınları da Mehriban xanımın vətənpərvərlik nümunələrindən, xeyirxah, nəcib əməllərindən daim bəhrələnə bilərlər.

Qadınlar üçün əziz, unudulmaz olan gündə söz demək, fikir söyləmək hamı üçün xoş idi. Zeynəb xanım yaxınlaşaraq bir-bir rayon mərkəzi xəstəxanasının baş həkimi Telman Zahidova, rayon təhsil şöbəsinin müdiri Əjdər Kərimova, rayon maliyyə idarəsinin rəisi Rəşid Manafova, DSMF rayon şöbəsinin müdiri Zəfər Nağıyevə, rayon statistika idarəsinin rəisi Vurğun Əkbərova söz verdi. Onlar əlamətdar günlə bağlı ürək sözlərini bildirdilər, qadınları təbrik edərək sevinc dolu günlər arzuladılar.

Gözəl şeirlərilə insanların qəlbinə yol tapan, onların ruhunu oxşayan şairə Zərxanım Ülvinin səmimi çıxışı yaddaşlarda qaldı. Oxuduğu yeni şeirlər alqışlara səbəb oldu.

Neftçalalılar rayon prokuroru Pərvin Quliyevin maraqlı fikirlərinin, çıxışlarının az şahidi olmamışlar. Onun məclisdəki çıxışı da səmimi təsir bağışladı, özünəməxsusluğu ilə fərqləndi. Belə səmimi çıxışı isə alqışlamamaq mümkün deyildi.

Aparıcı tədbirdə iştirak edən şəhid analarına, ayrı-ayrı sahələrdə, vəzifələrdə çalışan qadınlara da söz verdi. Onların fikirlərini ümumiləşdirən Leyla Abdullayeva göstərdiyi qayğı və diqqətə görə rayon rəhbərliyinə, məclisi təşkil edənlərə səmimi minnətdarlığını bildirdi.

Bir-birindən gözəl musiqi nömrələri məclisə xüsusi təravət gətirir, onu daha da şirinləşdirirdi. Müğənnilərin qəlbəyatan mahnılarını dinləyən qadınlar yeri gəldikcə rəqs etməyi də unutmurdular. Bununla yanaşı onlar əyləncəli intellektual oyunlarda, viktorinalarda da fəal iştirak edir, bilik və bacarıqlarını həvəslə nümayiş etdirirdilər.









Rayonumuzda da işləri, peşələri, intellektual səviyyələri ilə fərqlənən əməksevər qadınlar çoxdur. Məclisdə belə qadınların zəhmətinin qiymətləndirilməsi də unudulmamışdı. Mərasim iştirakçılarının alqışları altında bir qrup fəal qadına rayon icra hakimiyyətinin Fəxri fərmanları təqdim olundu. Çəkdikləri zəhmətlərinin layiqincə dəyərləndirilməsi onların sevinclərinin üstünə yeni sevinc gətirdi.

Sevgi dolu, nəğmə dolu unudulmaz, yaddaqalan bir tədbir də beləcə sona yetdi. Hamı salonu xoş əhvali-ruhiyyə ilə tərk etdi.

**Dinarə SƏRDARZADƏ**

## SHXÇDX-nin yaradılmasının dörd ili tamam oldu

# ORDUMUZUN SIRALARI MÖHKƏMLƏNİR



Turan ƏLİYEV, SHXÇDX rayon şöbəsinin rəisi

Ölkəmiz özünün müstəqilliyini əldə etdikdən sonra onun qarşısında duran ən mühüm, ən təxirəsalınmaz vəzifələrdən biri də nizami ordunun yaradılması, onun yeni, müasir silahlarla, ixtisaslı kadrlarla təchiz edilməsi idi. Bu məsələ əsaslı şəkildə həll edilmədiyinə görə müstəqilliyimizin ilk illərində çoxlu çətinliklərlə üzləşdik, məkrli düşmənlərimizlə mübarizədə torpaqlarımızın xeyli hissəsini itirdik. Məhz buna görə ümummilli lider Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi rəhbərliyə gəldikdən sonra ən çox diqqət yetirdiyi məsələlərdən biri də ordu quruculuğu oldu, ulu öndərin rəhbərliyi, siyasi iradəsi ilə çox keçmədən möhkəm, nizami ordumuzun bünövrəsi qoyuldu.

Ordu quruculuğu Heydər Əliyev siyasi məktəbinin layiqli yetirməsi möhtərəm Prezidentimiz İlham Əliyevin də daimi diqqət mərkəzindədir. Ali Baş Komandan İlham Əliyevin ardıcıl diqqət və qayğısı, müdrik göstərişləri sayəsində bu gün Azərbaycan Ordusu ən müasir silah və sursatlarla təchiz edilmiş, dünyanın ən güclü ordularından birinə çevrilmişdir.

Ordu elə bir qurumdur ki, onun tərkibi daim dəyişir, təzələnir, yeni qüvvələrlə təchiz edilir. Əslində gərək dar ayaqda, çətin anlarda hər bir ölkənin bütün əhalisi müsəlləh əsgər kimi ayağa qalxsın, heç bir şeydən qorxub çəkinmədən silaha sarılsın. Bu isə öz-özünə baş verə bilməz. Bunun üçün gərək hərbi yaşına çatan hər bir cavan vaxtında səfərbərliyə alınsın, ordu sıralarında xidmət eləsin, ən çətin döyüş vərdişlərinə yiyələnsin, sonra da ehtiyata buraxılsın. Bu mühüm vəzifənin əsas icraçılarından biri də məhz Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətidir. Bu qurum, bütövlükdə Prezidentin, Ali Baş Komandan Ilham Əliyevin ordu quruculuğu sahəsində qarşıya qoyduğu məsul və şərəfli vəzifələri layiqincə yerinə yetirməyə ünvanlanıb...

Son illər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və ardıcıl siyasəti nəticəsində ölkəmizin hərbi potensialı dəfələrlə artıb, silahlı qüvvələrimiz döyüş qabiliyyətinə görə regionun ən güclü ordusuna çevrilib. Ordu quruculuğu prosesinin təkmilləşdirilməsi çağırış və səfərbərlik resurslarını tənzimləyən mükəmməl mexanizmin yaradılması ilə də gündəmə gəlib. Prezident Ilham Əliyevin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunun tətbiqi barədə 13 fevral 2012-ci il tarixli Fərmanı ilə Müdafiə Nazirliyinin tabeliyində olan Respublika Hərbi Komissarlığı, Naxçıvan Muxtar Respublikasının Hərbi Komissarlığı, rayon, şəhər hərbi komissarlıqları ləğv edilərək onların əsasında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yaradılıb.

Səfərbərlik və hərbi xidmətə çağırış işinin təşkilində əsas mərhələ vətəndaşların həqiqi hərbi xidmətə çağırılması prosesidir. Bu prosesi həyata keçirən qurum bir növ ordu ilə cəmiyyət arasında körpü rolunu oynayır. Xidmət yaradılandan indiyədək vətəndaşların həqiqi hərbi xidmətə çağırış sisteminin təkmilləşdirilməsi məqsədilə əsaslı tədbirlər görülüb, çağırış sistemində çağırışçıların hərbi uçotunun dəqiq və düzgün aparılmasına nəzarət artırılıb. Prezident Ilham Əliyevin "Dövlət orqanlarının elektron xidmətlər göstərilməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanına müvafiq olaraq səfərbərlik və hərbi xidmətə çağırış işinin təşkilində şəffaflığın təmin edilməsi, o cümlədən vətəndaşlarla maneəsiz və birbaşa əlaqənin qurulması məqsədilə xidmətin internet saytı yaradılıb. 2013-cü ildə ilk olaraq çağırışçılara müddətli həqiqi hərbi xidmətlərini hansı hərbi hissədə keçmələri ilə bağlı məlumatların internet və ya qısa mesaj vasitəsilə verilməsi xidməti istifadəyə verilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin fəaliyyətində çağırışçıların hələ orta məktəb illərindən hərbi xidmətə hazırlığı, hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi işi mühüm yer tutur. Bu baxımdan gənclərdə Vətənə sədaqət, Azərbaycan Ordusuna sevgi, ölkəmizin müstəqilliyini və ərazi bütövlüyünü əldə silah müdafiə etməyə hazır olmaq, öz ölkəsinin taleyi üçün yüksək cavabdehlik məsuliyyəti aşılayan tədbirlər böyük əhəmiyyət kəsb edir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin fəaliyyəti, bütövlükdə Prezidentin, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu sahəsində qarşıya qoyduğu məsul və şərəfli vəzifələrin layiqincə yerinə yetirilməsinə ünvanlanıb...

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin fəaliyyətində daha bir yenilik isə 2014-cü ildən elektron xidmətlərlə yanaşı, "ASAN Xidmət" mərkəzlərində Xidmətin səlahiyyətlərinə aid xidmət növlərinin həyata keçirilməsidir. Indi xidmətin bütün "ASAN Xidmət" mərkəzlərinə ezam olunan əməkdaşları bu istiqamətdə görülən işlərə müsbət təsir edirlər. Bu, eləcə də ölkənin bütün regionları üzrə keçirilən "Vətənin müdafiəsinə hazıram!" adlı silsilə tədbirlər gənclərin, ümumilikdə ictimaiyyətin böyük dəstəyini qazanıb. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həyata keçirdiyi tədbirlərdən əsas məqsəd isə vətəndaşların Silahlı Qüvvələrə inamını daha da yüksəltmək, xalqın, dövlətin və Ali Baş Komandanın etimadını doğrultmaqdır.

Bütün bu vəzifələri qurumun rayonumuzdakı şöbəsinin əməkdaşları da layiqincə yerinə yetirir, bu məqsədlə bir-birindən maraqlı tədbirlər həyata keçirirlər. Orta məktəblərin hərbi çağırış yaşına yaxınlaşan şagirdləri ilə əlaqələrin möhkəmləndirilməsi, vaxtaşırı olaraq onların Böyük Vətən və Qarabağ müharibəsi veteranları ilə görüşlərinin keçirilməsi və görülən digər tədbirlər həmin istiqamətdə atılan müsbət addımlardır. Bütün bunların nəticəsidir ki, şöbəmizin əməkdaşları qarşıya qoyulan vəzifələri həmişə layiqincə yerinə yetirir, gəncləri vaxtında səfərbərliyə alaraq ordu sıralarına yola salırlar.

Şöbənin həyatında dövlət başçısı cənab İlham Əliyevin sərəncamı ilə vətəndaşların həqiqi hərbi xidmətə çağırılması ən mühüm, ən məsuliyyətli dövrdür. Bu dövrdə şöbə əməkdaşları daha məsuliyyətlə çalışır, çağırış yaşlı bütün gənclərin vaxtında ordu sıralarına yola salınmasına nail olurlar. Əvvəlki çağırışlarda olduğu kimi, onlar qış çağırışını da beləcə uğurla yola salıblar. Qarşıdakı yaz çağırışına da ciddi hazırlıq görülür.

Respublikamızın hər yerində olduğu kimi biz də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasının 4-cü ildönümünü ümumi sevinc içində qeyd etdik. İlk öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gələrək ordu quruculuğunun əsasını qoymuş bu dahi insanı böyük ehtiramla yad etdik, buraya tər çiçəklər düzdük. Sonra tədbirimizi şöbəmizdə davam etdirdik.

Ordu ölkənin canlı sipəri, bizim hər birimizin dinc həyatımızın etibarlı təminatçısıdır. Ordunun durmadan möhkəmləndirilməsi, onun sıralarının müntəzəm şəkildə təzələnməsi, yeni qüvvələrlə təchiz edilməsi hamının şərəfli vəzifəsi, əsl ümumxalq işidir. Bu işdə gərək heç kəs öz köməyini əsirgəməsin.



# Yuxarı Qaramanlı, Qırmızıkənd və Xolqarabucaq kəndlərində də qaz alovlandı

Ötən il rayonumuzda qaz çəkilişi çox geniş vüsət almışdı. Qazçəkənlər qarşıya qoyulan vəzifənin layiqli icrası üçün əllərindən gələni əsirgəmirdilər. Bunun nəticəsi idi ki, həmin il ayrıayrı yaşayış məntəqələrində silsilə qaz açılışlarının şahidi olduq. Şölələnən "mavi alov" öz hərarəti ilə Aşağı Surra, Kürqarabucaq, I Qaralı, Qədimkənd, Aşağı Qaramanlı, Tatarməhlə, Abasallı və digər kəndlərin, yaşayış məntəqələrinin sakinlərinin evlərini də isindirdi, onların böyük sevincinə səbəb oldu.

Yaşayış məntəqələrinə qaz çəkilişi bu gün də davam edir. Çəkilən qaz xətləri bu gün də istifadəyə verilərək sakinlərə fərəh bəxş edir. Onlar bu xidmətdən yetərincə bəhrələnirlər.

Belə bir açılış mərasimi bu günlərdə rayonun Yuxarı Qaramanlı inzibati ərazisində də oldu. Həmin gün bu kənddə də böyük sevinc yaşanırdı. Uzun illərin çətinliklərindən sonra, nəhayət, bu kəndin sakinlərinin evlərində də "mavi alov" şölələnəcəkdi. Onların qəlbini fərəhlə, minnətdarlıq duyğuları ilə dolduran da elə bu idi.

Təntənəli mərasimi Yuxarı Qaramanlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Yalçın Abıyev açaraq kəndə qaz verilişini əlamətdar hadisə adlandırdı. Bunun kənd sakinlərinin həyatında çox mühüm hadisə olduğunu bildirdi. Buna görə dövlət başçısı cənab İlham Əliyevə, rayon rəhbərliyinə, qaz çəkilişini həyata keçirən təşkilatın kollektivinə bütün kənd sakinləri adından səmimi minnətdarlığını bildirdi.

Əlamətdar hadisə münasibətilə kənd sakinlərini ürəkdən təbrik edən rayon icra hakimiyyəti başçısının müavini Nəriman Xəlilov kəndə qaz çəkilişini regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının nəticəsi kimi dəyərləndirdi. Bu işlərin bundan sonra da ardıcıllıqla davam etdiriləcəyini, rayonun digər ərazilərinin də tezliklə qazlaşacağını diqqətə çatdırdı.

Mərasimdə iştirak edən Salyan regional qaz istismar idarəsinin rəisi Kamil İsayevin, kənd sakinləri veteran müəllim Məmməd Məmmədovun, kənd ağsaqqalı Sarıxan Talıbovun və başqalarının çıxışları da səmimi qarşılandı.

İlk qaz kənd sakini Vaqif Mənəfovun evində şölələndi. Çay süfrəsi ətrafında səmimi söhbət oldu. Sakinlər göstərdiyi qayğı və diqqətə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər.

* * *

**Daha sonra rayonun Qırmızıkənd, Xolqarabucaq kəndlərində də qazın açılışları ilə bağlı təntənəli mərasimlər keçirildi. Həmin kəndlərdə "mavi alov"un şölələnməsi də yerli sakinlərin böyük razılığına, sevincinə səbəb oldu. Onlar da göstərdiyi qayğı və diqqətə görə Prezident İlham Əliyevə özlərinin səmimi minnətdarlıqlarını bildirdilər.**

# 31 mart — xalqımızın soyqırım günü

Böyük Səməd Vurğunun "Azərbaycan" şeirində bəlkə də fərqinə varmadığımız belə bir misralar var: "Bilinməyir yaşın sənin, Nələr çəkmiş başın sənin!" Doğrudan da Azərbaycan adlı məmləkətin, Azərbaycan xalqının başı nələr çəkməmişdir?! Kimlər bu torpaqda at oynatmamış, bu xalqı sındırmağa, əzməyə çalışmamışdır?! Amma qürur hissilə deyə bilərik ki, bütün qəsbkarların arzusu gözündə qalmış, bu xalq, bu millət heç bir qəsbkara boyun əyməmiş, yaşamış, yaratmış və ucalmışdır.

Tarixin ayrı-ayrı vaxtlarında — 1905, 1918-1920, 1988-1993-cü illərdə ermənilər tərəfindən xalqımıza qarşı çoxsaylı qırğınlar, fəlakətlər törədilmişdir. Bütün soyqırımların, fəlakətlərin, faciələrin kulminasiya nöqtəsi isə 1918-ci il martın 18-də baş vermiş hadisələr olub. O gün təpədən dırnağadək silahlanmış erməni quldur dəstələri tərəfindən Bakıda, Gəncədə, Qazaxda, Qubada, Salyanda, Neftçalada, Lənkəranda və Azərbaycanın digər bölgələrində dinc əhaliyə qanlı divan tutulmuşdur. Bu, sözün əsl mənasında bir xalqa, bir millətə qarşı yönəlmiş soyqırım idi. Çünki minlərlə insan yalnız azərbaycanlı — türk olduğuna görə qətlə yetirilirdi. Özü də bu insanların öldürülməsi ağlasığmaz, insanlığa yaraşmayan, xüsusi amansızlıq və qəddarlıqla həyata keçirilirdi. Nə uşağa, nə böyüyə, nə cavana, nə qocaya, nə də qadına rəhm edilirdi. Hətta əlillərə, hamilə qadınlara belə aman verilmirdi. Adamlar diri-diri yandırılır, onların gözləri çıxarılır, ayaqları, qolları kəsilir, kürəklərinə qaynar samovar bağlanır və digər ağır işgəncələrdən, vəhşi üsullardan istifadə edilirdi. Ölümün əlindən canlarını qurtarmaq üçün insanlar məscidlərə sığınaraq düşünürdülər ki, bəlkə erməni quldurları Allah evində onlara toxunmaz. Lakin nə dini, nə Allahı olan bu vəhşilərin gözünə heç nə görünmürdü. Onların bir məqsədi var idi: nəyin bahasına olursa olsun, Azərbaycan xalqını tamamilə məhv edərək yer üzündən silmək.



Ən çətin vaxtlarda həmişə yanımızda olan türk qardaşlarımız bu dəfə də xalqımızın köməyinə çatdılar. Qüdrətli sərkərdə Nuru paşanın başçılığı ilə bir neçə minlik türk ordusu Azərbaycana daxil olaraq erməni quldur dəstələrini darmadağın etdi. Bununla da xalqımıza qarşı aparılan qırğının daha geniş miqyas almasının qarşısı alındı. Elə buna görə də erməni quldurları ilə ölüm-dirim savaşında böyük şücaət, rəşadət göstərmiş Nuru paşanın, türk zabit və əsgərlərinin əziz xatirəsi xalqımız tərəfindən həmişə böyük hörmət və ehtiramla yad edilir, türk xalqına sonsuz minnətdarlıq hissi ifadə olunur.

1918-ci ildə erməni faşistləri digər məlum bölgələrdə olduğu kimi, indiki Neftçala və Salyan rayonlarının ərazisinə daxil olan kəndlərdə, o cümlədən Kürqaraqaşlı kəndində və Dirovdağda çoxsaylı həmvətənlərimizi ağır işgəncələrlə qətlə yetirmişlər. Məşhur türk zabiti Ömər paşanın rəhbərliyi ilə 100 nəfərə yaxın türk əsgəri və zabiti yerli könüllü müdafiə dəstələrinin köməyinə çataraq erməni quldurlarına qarşı döyüşlərdə misilsiz igidlik və şücaət nümayiş etdirmişdir. Həmin döyüşlərdə şəhid olan qəhrəman türk əsgərləri Bankə və Salyan qəbristanlarında inşa olunmuş memoriallarda uyumaqdadırlar.

Bu gün ermənilərin başımıza gətirdiyi müsibətlərlə əlaqədar beynəlxalq miqyasda çox geniş iş aparılır, ortaya bir-birindən tutarlı faktlar qoyulur. Şübhəsiz ki, bunlar nəticəsiz qalmayacaq. İnanırıq ki, görülən tədbirlər nəticəsində özlərini məzlum, fağır kimi göstərməyə çalışan erməni faşistlərinin əsl siması bütün dünyaya bəlli olacaq, xalqımıza qarşı ağır cinayətlər törətmiş köçəryanlar, sarkisyanlar və digər erməni qəsbkarları beynəlxalq məhkəmə qarşısında dayanacaq və öz layiqli cəzalarını alacaqlar.

**Zabil PƏRVİZ**

## 2016-cı il — "Multikulturalizm İli"dir

# ÖLKƏMİZİN ÖZÜNÜ MULTİKULTURALİZM MƏRKƏZİ SAYMAĞA TAM HAQQI VAR

**(Əvvəli 1-ci səhifədə)**

Azərbaycan xalqı yer üzündə yeganə xalqdır ki, tarix boyu dünyanın bütün dinlərinə, bütün xalqlarına və millətlərinə həmişə dərin hörmət hissilə yanaşıb, onlarla eyni bir ərazidə mehriban şəraitdə yaşayıb, xoş münasibətlər yaradıb. Bu bizim şifahi xalq ədəbiyyatımızda da, yazılı klassik ədəbiyyatımızda da özünün aydın əksini tapıb. "Əsli və Kərəm" dastanı bunun əyani nümunəsidir. Bildiyimiz kimi, Qafqaz Albaniyası xristian bir ölkə olub. Məhz bu sevgi motivi də burada yaranıb. Xalq rəvayətlərindən qaynaqlanan bu sevgi dastanı millətlərarası dostluğun, başqa dinlərə və millətlərə hörmətlə yanaşmağın əyani nümunəsidir. Dahi şairimiz Hüseyn Cavidin "Şeyx Sənan" əsərində də multikulturalizm ideyaları aydın əksini tapıb. Bu əsərdə gürcü qızına qəlbən vurulan, onu ilahi bir məhəbbətlə sevən Şeyx Sənan haqdan gələn bir sevginin tərənnümçüsü kimi təsvir olunub.

Nə bizim dinimizdə, nə millətimizdə heç vaxt kin-küdurət, başqa xalqlara və millətlərə nifrət hissi olmayıb. Bu mənada Azərbaycan xalqı yer kürəsində bütün xalqlara və millətlərə nümunə kimi göstərilə bilər. Bunun əksinə olaraq bizə nümunə kimi göstərilən, multikulturalizm dərsi verməyə çalışan Qərb ölkələrinin özlərində başqa xalqlara və millətlərə bizdəki qədər dözümlülük, dərin hörmət və ehtiram hissini görmürük. Neçə əsrlərdir Almaniyada xeyli türk yaşayır. Bu türklər elmdə, mədəniyyətdə, incəsənətdə dünya sivilizasiyasına böyük töhfələr veriblər. Amma Almaniyada indiyə qədər türklərə tam hüquq verilməyib.

Müasir İngiltərədə də xeyli sayda xalqların, millətlərin nümayəndələri yaşayır. Amma ingilislər də mühafizəkardırlar. Onlar heç vaxt başqa xalqların və millətlərin mədəniyyətini qəbul etmirlər, onların hamısına aşağı gözlə baxırlar, özlərini hamıdan üstün sayırlar. İngiltərədə əcnəbilər heç vaxt tam hüquqa malik olmayıblar.

Qərb ölkələrinin multikulturalizm ideyalarına yad olduqlarını başqa amillərdə də aydın şəkildə görmək olar. 15 ildən çoxdur ki, ərəb ölkələrində hərbi münaqişələr gedir, burada həyat alt-üst edilir. Çarəsizlikdən yüz minlərlə insan doğma yurd-yuvasından didərgin düşərək qaçqın şəklində Avropa ölkələrinə üz tutur, onlardan sığınacaq istəyir. Bəs bunun müqabilində Avropa ölkələri neyləyirlər? Onlar məhz müsəlman olduqları üçün sərhədləri biçarə qaçqınların üzünə bağlayır, yüz minlərlə insanı labüd ölümlə üz-üzə qoyurlar. Bunun da nəticəsində böyük bir insan axını dənizlərdə boğulub məhv olur. Rəsmi məlumata görə ərəb ölkələrindən gələn 10 min uşağın taleyi məlum deyil. Onlar ya məhv olublar, ya da harasa satılıblar.

Özlərini mədəni, humanist sayan Qərb ölkələrinin qapılarını qaçqınların üzünə bərk-bərk bağladığı bir vaxtda qardaş Türkiyə hökuməti Suriyadan gələn 2 milyon qaçqını öz vətəndaşı kimi ərazisində yerləşdirib. 1988-1990-cı illərdə Özbəkistanda Mesxeti türklərinə od vurulub yandırılanda biz də belə etdik, qaçqın kimi bizə üz tutanları öz ərazimizdə yerləşdirdik. Müstəqilliyimizi əldə etdikdən sonra multikulturalizm sahəsində daha ciddi addımlar atmış, daha böyük qələbələr qazanmışıq. 1995-ci ildə qəbul olunmuş Azərbaycan Konstitusiyasında ölkəmizdə yaşayan bütün xalqlar, millətlər dinindən, dilindən asılı olmayaraq bərabər hüquqa malikdir. Respublikamızın hər yerində məscidlərlə yanaşı kilsələr, sinaqoqlar da açılır, digər xalqların və millətlərin də tarixi abidələri mühafizə olunaraq qorunur, hər bir xalq öz doğma dilində danışır, təhsil alır, sitayiş edir.

Azərbaycan öz qoynunu doğma ana kimi bütün xalqlara və millətlərə açdığı kimi, burada yaşayan başqa xalqların və millətlərin nümayəndələri də Azərbaycanı özünün doğma yurdu, Vətəni kimi qəbul edir, onun yolunda ölümə belə getməyə hazır olur. Bunun əyani nümunələri çoxdur. Qarabağ döyüşlərində yəhudi Albert "Azərbaycan mənim vətənimdir" deyə qəhrəmancasına həlak oldu, qanlı 20 Yanvar hadisələri zamanı azyaşlı Larisa Məmmədova da Azərbaycanın haqq işi uğrunda şəhid oldu.

Multikulturalizm təkcə özgə xalqlara, millətlərə yox, eyni zamanda özgə məzhəblərə də dözümlülük deməkdir. Ölkəmiz bu cəhətdən də dünyaya nümunə göstərir. Respublika Prezidenti İlham Əliyevin iştirakı ilə Heydər Əliyev məscidində keçirilən mərasimdə şiələrlə sünnilərin birgə cümə namazı qılması buna əyani misaldır.

Azərbaycan xalqı yüz illərdən bəri gələn dini dözümlülük, başqa dinlərə, xalqlara, millətlərə hörmət və ehtiram ənənələrini bu gün də inamla yaşadır, inkişaf etdirir, başqa xalqlara və millətlərə nümunə göstərir. Şübhə yoxdur ki, bu nəcib ideyalar, bu gözəl ənənələr ölkəmizdə zaman-zaman yaşayacaq, inkişaf edəcək, nəsillərdən nəsillərə ötürüləcək.

**İmamverdi ZEYNALOV,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü,**
**şair, yazıçı, publisist**

## Yubiley: BİZİM RAQİB MÜƏLLİM

O gün şəxsiyyətinə həmişə böyük hörmətlə yanaşdığımız iş yoldaşımız, zəhmətkeş insan Raqib Səttar oğlu Əzizovun anadan olmasının 65 illik yubileyini qeyd etmək üçün toplaşmışdıq bir yerə. Əmək fəalliyyətinin 10 ilindən çoxunu mədəniyyət və turizm şöbəsində məsləhətçi (inspektor) vəzifəsində çalışan, dəfələrlə şöbə rəhbərliyini əvəz edən Raqib müəllim burada işə başladığı elə ilk gündən o vaxta qədər ona çox da tanış olmayan bu sahənin incəliklərini, xüsusiyyətlərini diqqətlə öyrənməyə başlamış, bu incəlikləri, xüsusiyyətləri yaxşı-yaxşı mənimsəmiş, kollektivin böyük hörmətini və etimadını qazanmışdır.



Yubiley tədbirində Raqib müəllim birgə çalışdığı mehriban kollektivin əhatəsində ona ünvanlanan xoş sözlərin, gözəl arzuların, acılı-şirinli xatirələrin qanadlarında xəyalən pərvazlandı, kövrəldi, qəlbini bürüyən böyük sevinc hissi ilə ona bu xoş günü yaşadanlara, ona dəyər verən insanlara ayrı-ayrılqda təşəkkürünü bildirdi, yenidən şöbənin rəhbərliyinə qayıdan Elmira xanım Kazımovaya müvəffəqiyyət dilədi...

O da hamı kimi kiçik yaşlarından böyük arzularla, istəklərlə yaşayır, bu arzu və istəklərinə qovuşmaq üçün elmlərə dərindən yiyələnirdi. Arzusu müəllim olmaq, uşaqlara elmlərin sirlərini öyrətmək idi. Onda bu arzunu, bu istəyi doğuran ilk növbədə təkcə biliyi, bacarığı, uşaqlara dərs öyrətmək qabiliyyəti ilə deyil, oturuşu, duruşu, ətrafındakılarla rəftarı, ağırlığı ilə də bütün şagirdlərinə örnək, nümunə olan, dünyasını çoxdan dəyişsə də, xatirəsi indiyədək onu tanıyanların qəlbində yaşayan, həmişə hörmətlə yad edilən riyaziyyat müəllimi Abbas Əliyev idi. Balaca Raqib bu müəllimi özünə ideal seçmişdi. O, qəlbinin dərinliyində həmin idealla bağlı çox arzuları yaşadırdı. Elə həmin arzularla da orta təhsilini başa vurduqdan sonra məqsədinin ardınca getdi, 1968-ci ildə müvəffəqiyyətlə imtahan verərək Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinə qəbul olundu. Onda bu münasibətlə onu ilk təbrik edənlərdən biri də məhz özünə ideal saydığı sevimli müəllimi Abbas Əliyev olmuşdu.

Raqib Əzizov 1972-ci ildə institutu bitirdikdən sonra təyinatla Biləsuvar rayonuna göndərildi, burada riyaziyyat müəllimi işlədi. Hərbi xidmətdən sonra da həmin rayona qayıtdı, 1978-ci ilədək orada çalışdı. 1978-ci ildə doğma rayonuna gəldi, Bankə qəsəbə orta məktəbində dərs deməyə başladı. Səyi və çalışqanlığı sayəsində az bir vaxt ərzində məktəbin müəllim və şagird kollektivi arasında sayıldı, seçildi, hörmət və nüfuz qazandı. Bir ildən sonra o artıq bu məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini işləyirdi.

Ciddiliyi, tələbkarlığı, işguzarlığı ilə seçilən, fərqlənən gənc müəllim, artıq rayon təhsil şöbəsi rəhbərliyinin diqqət mərkəzində idi. Bunun da nəticəsində Raqib Əzizov 1980-ci ildə indiki Mirqurbanlı kənd orta məktəbinə təlim-tərbiyə işləri üzrə direktor müavini, 1982-ci ildə isə geridə qalan Həsənabad (keçmiş Sovetabad) qəsəbə orta məktəbinə direktor vəzifəsinə təyin edildi. Rayon təhsil şöbəsinin rəhbərliyi əmin idi ki, Raqib Əzizov özünün ciddiliyi, tələbkarlığı, dərin məsuliyyət hissi ilə az bir vaxt ərzində geridə qalmış bu məktəbi dirçəldə biləcək. Amma onda təhsil şöbəsi rəhbərliyinin bu inamına şübhə ilə yanaşanlar, bu çəlimsiz cavanın az bir vaxt ərzində burada dönüş yaradacağına, geridə qalmış bir məktəbi qabaqcıllar sırasına çıxaracağına inanmayanlar da az deyildi. Raqib müəllim ona göstərilən bu etimadı layiqincə doğrultdu, orada çalışdığı 5 il ərzində çox işlər gördü. Həmin dövrdə Raqib müəllimin təşəbbüskarlığı, ardıcıl səyləri sayəsində Həsənabad qəsəbə orta məktəbində ayrıca qazanxana inşa olundu, sinif otaqları əsaslı təmir edildi, Qələbə abidəsi ucaldıldı, uşaqların zəhmətə alışdırılması, məktəbin abadlaşdırılması məqsədi ilə həyətdə şagirdlərin köməyi ilə böyük bir nar bağı salındı.

Qısa bir vaxt ərzində Həsənabad qəsəbə orta məktəbində görülən bu böyük işlər, həyata keçirilən diqqətəlayiq tədbirlər göz qabağında idi. Təbii ki, bu özünün layiqli qiymətini almalı, layiqli mükafatını qazanmalı idi. Aldı da, qazandı da. Burada görülən işlər, həyata keçirilən tədbirlər rayon rəhbərliyinin də diqqətindən kənarda qalmadı. Ancaq rayon rəhbərliyi Raqib müəllimin gücündən, qüvvəsindən, bacarığından tək təhsil sahəsində yox, başqa sahələrdə, idarəetmədə, quruculuqda da istifadə etmək istəyirdi. 1987-ci ildə Raqib Əzizov 26 Bakı komissarı adına qəsəbə Sovetinin sədri seçildi. 1988-1991-ci illərdə şəhər Sovetinin sədri, 1991-1993-cü illərdə rayon icra hakimiyyəti başçısının şəhər inzibati ərazisi üzrə nümayəndəsi, 1993-1994-cü illərdə rayon icra hakimiyyəti başçısı aparatı humanitar məsələlər şöbəsinin böyük məsləhətçisi, 1994-1996-cı illərdə rayon icra hakimiyyəti başçısının şəhər inzibati ərazi üzrə nümayəndəsi vəzifələrində çalışdı.

O dövrdə ən çətin, ən məsuliyyətli məsələlərdən biri də gecə-gündüz bilmədən Qarabağ uğrunda döyüşlərdə həlak olan şəhidlərin cənazələrinin aparılıb ailələrinə təhvil verilməsi, sakitliyin təmin olunması, şəhidlərin yas mərasimlərinin təşkil edilməsi, yola verilməsi, cəbhəyə müntəzəm şəkildə əsgər yola salınması idi. Rayon rəhbərliyi bütün bu çətin işlərə həmişə birinci camaatın ürəkdən inandığı, hörmət etdiyi adamları cəlb etməyə çalışırdı. Belələrinin sırasında Raqib Əzizov həmişə birincilərdən olurdu.

Ümummilli lider Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti sayəsində ölkədə həyat tədricən məcrasına düşdü, 90-cı illərin ortalarından geniş quruculuq işlərinə başlandı. Həmin dövrdə torpaq islahatı da aparılırdı. Belə bir çətin, məsuliyyətli dövrdə Raqib Əzizov bərbad vəziyyətdə olan "Kür" kolxozuna sədr göndərildi, burada torpaq İslahatı komissiyasının sədri vəzifəsinə təyin olundu. Onun rəhbərliyi ilə 1997-1998-ci illərdə həmin ərazidə torpaqların kəndlilərə paylanılması işi uğurla həyata keçirildi...

Uzun fasilədən sonra 1999-cu ildə Raqib müəllim qısa bir müddət ərzində təzədən müəllimliyə qayıtdı, orta məktəbdə dərs deməyə başladı. Bu vaxt ölkədə ilk bələdiyyə seçkiləri keçirildi. Raqib müəllim də tərəddüd etmədən bu seçkilərə qatıldı, böyük səs çoxluğu ilə qələbə qazandı. 2001-2003-cü illərdə Neftçala bələdiyyəsi sədrinin müavini, 2003-2005-ci illərdə bu bələdiyyənin sədri vəzifələrini icra etdi. 2005-ci ildən etibarən isə o, rayon mədəniyyət və turizm şöbəsində çalışır...

Biz uzun illərdir ki, Raqib müəllimlə eyni bir kollektivdə çalışırıq. Onun işinə, fəaliyyətinə yaxından bələdik. Bu işə, bu fəaliyyətə baxanda elə bilirsən Raqib müəllim əvvəldən mədəniyyət işiçisi olub, elə həmişə bu sahədə çalışıb, bu sahənin əla bir mütəxəssisidir. Amma onun çoxşaxəli əmək fəaliyyətini gözdən keçirəndə qarşında həmişə öz zəhmətinə sığınan, zəngin həyat təcrübəsinə, hərtərəfli biliyə, qabiliyyətə malik bir insan canlanır - Raqib Əzizov.

**Nəzakət MƏMMƏDOVA**

### Pedaqoji mövzuda

## PRAKTİKİ İŞ ŞAGİRDLƏRİ DAHA DA FƏALLAŞDIRIR

Məqaləmə ümummilli lider Heydər Əliyevin “Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O milli məqsədlər, mənafelər əsasında qurulmalıdır” kəlamı ilə başlamaq istəyirəm. 2003-2011-ci illər ərzində ölkəmizdə keçirilən kurikulum islahatları da bu ali məqsədə xidmət edir. Keçirilən islahatlar prosesində təhsilin inkişafının yüksək səviyyədə olduğunu əyani şəkildə gördük. Təhsil həyatımızı dəyişən, inkişaf etdirən ən mühüm sahələrdən biri olduğundan məktəblərdə də bu yöndə mühüm işlər görülməkdədir. İşlədiyim şəhər 1 saylı tam orta məktəbində də bu istiqamətdə uğurlu addımlar atılır. Şagirdlərin dərsə həvəs və maraqlarının artırılması bu işdə çox mühüm əhəmiyyət kəsb edir. İbtidai sinif müəlliməsi kimi mən də tədris etdiyim fənləri bu istiqamətdə aparıram.

Praktik iş şagirdlərin dərsə həvəs və marağını artıran əsas amillərdir. Belə olduqda onlar tədris olunan mövzunu daha asan şəkildə mənimsəyir və yadda saxlayırlar. Tədris olunan fənnə maraq getdikcə daha da artır. Dərketmə praktik fəaliyyətlə bağlı olduğundan şagirdlər öyrəndiklərini tətbiq edərək və ya onlara əsaslanaraq əməli fəaliyyət göstərir, bunu əyani şəkildə nümayiş etdirirlər.

Elə burada A.Fransın fikrini qeyd etmək yerinə düşərdi: “Bilikləri həzm etmək üçün onları iştahla qəbul etməlisən”. Çalışıram tədris prosesində praktik işə daha geniş yer ayırım.

Həyat bilgisi dərsində insan orqanlarını təcrübi olaraq görmək üçün şagirdlərlə birlikdə məktəbin laboratoriyasına yollanırıq. Orada insan skeleti, spirtdə saxlanılan insan orqanları, plakatlar və orqanların kiçik maketləri ilə tanış oluruq. Bundan əlavə şagirdlər sinifdə monitor vasitəsilə orqanları görür, özləri bu orqanların fəaliyyətini izah etməyə çalışırlar.

Yanvarın 29-da keçirdiyim praktik iş daha maraqlı və yaddaqalan oldu. Həmin dərsdə mən həyat bilgisi fənnindən “İlk tibbi yardım” mövzusunu tədris etdim. Şagirdlər ənənəvi yox, dairəvi əyləşdilər. Lazım olan əşyalar nümayiş olundu. İlk tibbi yardım çantasını və



onun içində nə olduğunu, iynənin necə vurulduğunu göstərdim. Dərslikdə ilk yardım şagirdlərin yaşına uyğun az nümunələrlə verilmişdi. Mən isə 23 tibbi yardım nümunəsini onlara nümayiş etdirdim. Çalışdım ki, sinfin bütün şagirdləri praktik işdə fəal iştirak etsin. Hər iş rollu oyun şəklində təşkil olunduğundan bu, uşaqlar üçün çox maraqlı idi.

İzah etdim ki, ilk tibbi yardım həkim, tibb işçisi gələnə qədər bizim xəstəyə dərman preparatlarından istifadə etmədən göstərdiyimiz yardımdır. Bunlara aşağıdakılar aiddir: burxulma, sınıq, arı sancması, heyvan dişləməsi, yanıq xəsarəti, qanama, günvurma, zəhərlənmə, qulaq və burundan qanaxma, elektrik vurma, zəhərli havadan boğulma, donma, süni nəfəs, ürək masajı, ürək ağrısı, halsızlıq, şoka düşmə, özündən getmə, nəfəs yolunda yad cismin qalması və sair.

Bu işlər eyni zamanda monitor vasitəsilə də nümayiş olunurdu. Şagirdlərin qeydlərinə görə bu dərsi onlar daha yaxşı mənimsədilər, dərk edərək yadda saxladılar. Bu dərs məktəbin Facebook səhifəsində də işıqlandırılaraq bəyənilmişdir.

Mən bacardığım qədər riyaziyyat, Azərbaycan dili, musiqi və digər fənlərin tədrisində də belə üsullara geniş yer ayırıram. Elə bilirəm biliklər təcrübə ilə reallaşdırıldıqda daha təsirli olur. Nəticədə məhsuldar və yaradıcı fərdlər formalaşır. Müəllim şagirdlərinin uğurlu nəticələrini görmək üçün daim yeniliklər barədə düşünməlidir. Mən də daim arayıb-axtarıram, yeni-yeni metodları, nümunələri tapmağa çalışıram. Səy göstərirəm ki, övladlarını mənə etibar edən valideynlərin ümidlərini doğruldum. Şagirdlərə lazımi bilikləri verməklə yanaşı onların həyat təcrübəsini də inkişaf etdirim. Belə dərslər isə onları daha da fəallaşdırır.

**Aybəniz SAİLOVA,**
**şəhər 1 saylı tam orta məktəbinin 4 “d” sinfinin müəllimi**

### Sizin kitab rəfiniz

## BİR ÖMRÜN İKİ TƏRƏFİ







Ömrünün 60 ilindən çoxunu şeirə, nəsrə, publisistikaya həsr etmiş ağsaqqal sənətkarımız Soltan Abbas yenə də gənclik həvəsilə yazıb yaradır. Onun ömür yolu da mənalıdır. Gənclər bu yoldan çox şey götürə, çox şey öyrənə bilərlər. Rayon mərkəzləşdirilmiş kitabxana sistemi metodika və biblioqrafiya şöbəsi tərəfindən G.Abdulhüseynovanın və B.Niftəliyevanın rəhbərlikləri ilə hazırlanan “Soltan Abbas” biblioqrafik məlumat kitabını məhz bu məqsədlə sizə təqdim edirik, əziz oxucular. Kitabın “Müdriklik çağından boylanan ömür” sərlövhəli ön sözünün müəllifi Neftçala MKS-nin metodika və biblioqrafiya şöbəsinin müdiri Bədurə Niftalıyevadır. Müəllif şairin həyat və yaradıcılığına sanki səyahət etmiş, bu yaradacılığı yüksək qiymətləndirmişdir. Ön sözdə Soltan Abbasın keçdiyi sənət yolu, poeziyasının ən parlaq nümunələri ilə yaxından tanış oluruq. Məqalə müəllifi uzun, zəngin, mürəkkəb yaradıcılıq yolu keçmiş şairin əsərələrini dərindən duymuş, dərk eləmiş, həmin əsərlərin hərtərəfli elmi təhlilini vermişdir.

Digər bölmə “Şair ömrünün mühüm illəri” adlanır. Burada şairin bütün həyatı, yaradıcılığı, nəşr olunan əsərləri barədə xronoloji məlumat verilmiş, onun yaradıcılığına görkəmli alimlər, ədəbiyyatşünaslar tərəfindən verilən qiymətlər öz əksini tapmışdır. Bu bölmədə Soltan Abbasın əsərlərindən nümunələr, aforizmlər silsilə şəklində ardıcıllıqla oxucuların nəzərinə çatdırılmışdır. Üçüncü bölmədə şairin kitabları haqqında, dördüncü bölmədə isə dövri mətbuatda çap olunmuş şeirləri barədə məlumat verilmişdir.

Daha sonra “Xəzər nəğmələri” təqdim edir” və “Məqalələr, oçerklər” bölmələri ilə tanış oluruq. Bu bölmələrdə şairin çap olunan şeirləri barədə geniş məlumat verilməklə yanaşı həm də o, nasir, tədqiqatçı kimi təqdim olunmuşdur. “Haqqında” bölməsində Azərbaycan ədəbiyyatının 65 görkəmli ziyalısının şairin əsərlərinə verdiyi qiymət, tədqiqatlar öz əksini tapmışdır.

Bu günlərdə Soltan Abbasın müəllifliyi ilə “Elm və təhsil” nəşriyyatında çapdan çıxmış kitab isə “Neftçalalı Əfqanıstan şəhidləri” adlanır. Kitabdan aydın olur ki, Əfqanıstan müharibəsində 14453 nəfər həlak olmuş, 1292 nəfər itkin düşmüş, 5753 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. Şəhid olanlardan 4 nəfəri — Ümidvar Quliyev, Etibar Əsgərov, Hüseyn Xəlilov, Xalid Cəfərov həmyerlilərimizdir, bizim rayondandır. O vaxtdan uzun illər keçsə də şair şəhidlərin həyatı, onların göstərdikləri igidliklər barədə dəyərli məlumatlar toplayaraq yaddaqalan xatirə əsəri yaratmışdır.

Hər iki kitab oxucular üçün maraqlıdır. Kitabların redaktoru Nəsib Soltanoğlunun sənədlərin, faktların toplanmasındakı, dəqiqləşdirilməsindəki rolu, xidməti xüsusi qeyd edilməlidir.

**İ.ZEYNALOV**

## Unutsaq unudularıq: VƏFATINDAN İKİ İL ÖTDÜ



Ölməz Şıxı oğlu Məmmədovun adı “Oktyabr bayrağı”, sonra isə “Gündoğar” qəzetinin oxucularına çox tanış idi. Müəllim, məktəb direktoru, ömrünün sonuna kimi yenə müəllim işləyən Ölməz Məmmədov maraqlı yazıları, mənsur şeirləri ilə rayon qəzeti oxucularının sevgisini qazana bilmişdi. Rayon mətbuatında tarix-diyarşünaslıq muzeyinin yaradılması ilə bağlı qaldırdığı problem xarakterli məqaləsi də maraqla qarşılanmışdı. Oxucuların müzakirəsinə verdiyi bu maraqlı yazı rayonda böyük əks-səda doğurmuşdu. Bununla əlaqədar o vaxtlar qəzetin səhifələrində dərc olunan məqalələrə rayon rəhbərliyi də biganə qalmamışdı, məsələnin vaxtında araşdırılıb həyata keçirilməsinə diqqət yetirmişdi.

Ölməz müəllimin uzun illər apardığı müşahidələrinin və axtarışlarının nəticəsi olaraq yazdığı “Kürdən başlanan yollar” kitabı ilə də oxucuların yaddaşında əbədi yaşamaqdadır. O, 2014-cü ilin baharında, 78 yaşında əbədiyyətə qovuşmuşdur. Vəfatının ikinci ildönümündə canından artıq sevdiyi ana Vətəni qoruyan oğullarımıza həsr etdiyi “Əsgər evə qayıdır” mənsur şeirini oxuculara təqdim edirik.

### ƏSGƏR EVƏ QAYIDIR

Əsgər cəbhəyə gedir...

Ana ürəyinin qanı ilə böyütdüyü sevimli balasını bağrına basır. Dönə-dönə oxşayır, öpür... Ona xeyir-dua verir...

Vida dəqiqələri yaxınlaşır. Ananı qəhər boğur. Ancaq ağlamır ana. Ağır yola gedənin dalınca ağlamazlar...

— Səni qorumağa gedirəm, ana!

— Məndən böyük Vətən var, oğul!

Əsgər cəbhəyə gedir...

* * *

Hər yan yanır. Ölümsaçan mərmilər yeri-göyü titrədir. Kəndlər, şəhərlər yerlə yeksan edilir. Min-min günahsız insan qanı axıdılır...

Əsgər vuruşur... İnsanlığın gələcək səadəti, xoşbəxtliyi naminə vuruşur...

Günahsız tökülən qanlar, viranəyə dönən kəndlər, şəhərlər, yurdsuz-yuvasız körpələr, ağlar qalan analar onu intiqama çağırır.

Əsgər vuruşur... Bir gülləsi də hədər getmir. Düşmənin başına od-alov yağdırdıqca, onu qarış-qarış, addım-addım geri oturtduqca, müqəddəs torpaqlarımızı düşməndən təmizlədikcə anasını düşünür, Vətənini düşünür...

Əsgər vuruşur... Bir addam da geri çəkilmir. Ağır döyüşlərdə, çətin günlərdə anasının sözləri güc, qüvvət verir ona!

Vətənin dağı, daşı alınmaz qalaya çevrilir, səngər olur əsgərə. Onu düşmənin qəfil həmləsindən, qəfil gülləsindən qoruyur. Ana sözü həyan olur əsgərə, onu mərdliyə, mətanətə səsləyir.

Əsgər vuruşur... Qələbəni yaxınlaşdıra-yaxınlaşdıra vuruşur...

* * *

Əsgər evə qayıdır... Neçə yerdən ağır yara alsa da, dözülməz ağrılara dözməli olsa da, qanlı vuruşmalar onu yorub əldən salsa da, odu-alovu sönməyən evlərə-eşiklərə, zəmilərə, tarlalara, bağlara, bağçalara baxıb acı-acı köks ötürsə də əsgər gülür, sevinir. Özündə yenilməz qürur hiss edir. Çünki o, insanlıq borcunu mərdliklə, mətanətlə yerinə yetirmişdi. İntiqam deyən minlərin, milyonların intiqamını almışdı.

Ölüm-dirim vuruşundan müzəffər çıxmışdı. Əsgər anasını qorumuşdu, əsgər Vətənini qorumuşdu...

**Ölməz MƏMMƏDOV**

## Növruz bayramında yanğın təhlükəsizliyi tədbirləri

Hər birimizin arzusudur ki, Novruz şənlikləri ən ülvi duyğularla yaddaşlarda qalsın. Bunun üçün isə bir sıra təhlükəsizlik qaydalarına, o cümlədən yanğın təhlükəsizliyi ilə bağlı bütün tələblərə ciddi əməl olunmalıdır.

Birinci növbədə qeyd edilməlidir ki, Novruz bayramında əhali tərəfindən pərakəndə halda tonqallar yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalı, tonqallar ətrafda olan yanar materiallardan, mühəndis-texniki qurğulardan, qaz xətlərindən, evlərdən, binalardan, tezalışan maye və materialların saxlandığı yerlərdən kənarda yandırılmalıdır.




Bayram şənlikləri zamanı tonqallar tam söndürülənədək nəzarətdə saxlanılmaldıdır. Unutmaq olmaz ki, zəif bir küləyin əsməsi nəticəsində tam sönməmiş tonqalın közü yanğın üçün mənbə ola bilər.

Novruz şənliklərində yanar mayelərin hopdurulması ilə hazırlanan məşəllərin azyaşlı uşaqlar tərəfindən havaya atılması nəticəsində də ciddi yanğınlar baş verə bilər. Belə ki, məşəllər evlərin dam örtüklərini və ya həyətyanı sahələrə yığılmış yanar materiallları, çəpərləri, ot tayalarını alışdıra bilər.

Uşaqlar adət-ənənələrimizə uyğun olaraq tonqalların üzərindən atılarkən özlərini yanğından qorumalıdırlar. Bayram tədbirlərində, xüsusən də tonqal ətrafında əyləncə və şənliklərdə azyaşlı uşaqlar mütləq valideynlərin nəzarəti altında olmalıdır.

Bayram şənlikləri zamanı şam yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına diqqət yetirmək lazımdır. Unutmaq olmaz ki, yanar şamı öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və s. yerlərə yapışdırmaq olmaz.

Bayram tədbirləri zamanı müəssisə və təşkilatlar, təhsil ocaqları, xüsusən də internat tipli məktəblər yanğın təhlükəsizliyi qaydalarına nəzarəti daha da gücləndirməlidirlər.

**FHN-nin Dövlət Yanğın Nəzarəti Xidmətinin Muğan Regional Dövlət Yanğın Nəzarəti İdarəsi**

## VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

2015-ci hesabat ilinin yekunlarına görə gəlir vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin bəyannaməsini, mənfəət vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident hüquqi şəxslər mənfəət vergisinin bəyannaməsini, əmlak vergisinin ödəyicisi olan müəssisələr əmlak vergisinin bəyannaməsini cari ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim etməyə, hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməyə borcludurlar.

Bununla yanaşı 2015-ci ilin yekununa görə hüquqi şəxslər mənfəət və əmlak vergisi üzrə, fiziki şəxslər gəlir vergisi üzrə bəyannamələrini 31 mart 2016-cı il tarixindən gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək dövlət büdcəsinə ödəməlidirlər.

Əlavə məlumat üçün "195-1" Çağrı Mərəkəzinə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

**5 saylı Ərazi Vergilər İdarəsi**

Yenikənd kənd sakini Əhməd Şahin oğlu Nağıyevin adına verilmiş 01 iyul 2010-cu il tarixli, AO №1179261 nömrəli hərbi bilet itdiyinə görə etibarsız sayılır.

***

Pürzə Tərlan qızı Qubadovanın adına verilmiş 22 iyun 2006-cı il tarixli torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN-280F, KOD 80700016) itdiyinə görə etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Ş.Orucov adına Həsənabad qəsəbə tam orta məktəbinin pedaqoji kollektivi iş yoldaşları İlqar Mahmudova, anası

**ARİFƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Baş redaktor H.Ə.ƏSƏDOV

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız: Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38, Telefon: 3-44-03 Mobil: (050) 333-72-30, (055) 669-56-71 H/H: №AZ95AIIB33080019446400258164 VÖİN: 6500044671

Qəzet “GÜNDOĞAR”ın kompüter mərkəzində yığılıb səhifələnmiş və “FUTBOL+SERVİS” mətbəəsində çap olunmuşdur. Dizayn Fərhad Ağayevin, fotolar Muradındır.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Tiraj: 750 Sifariş №8 Bir nömrənin qiyməti: 40 qəpik.